Simfonik orkestrin ifasında Azərbaycanın dövlət himni səsləndirildi. Azərbaycan Respublikasının dövlət bayrağı stadiona gətirildi. Stadionda quraşdırılan elektron tablolarda Azərbaycanı qarış-qarış dolaşmış məşəlin səyahət marşrutu nümayiş etdirildi. Uzunluğu 700 metr olan, arena boyu dövrələnən paneldə LED lampaları vasitəsilə alovun səyahət etdiyi məkanların adları bir-bir yazıldı. Son məşəlçi - iki dəfə Paralimpiya Oyunları çempionu, ikiqat dünya çempionu, beşqat Avropa çempionu İlham Zəkiyev Jan Sibeliusun "5-ci simfoniya"sının sədaları altında birinci Avropa Oyunlarının məşəlini stadiona gətirdi. Gənclərin Olimpiya Oyunlarında taekvondo üzrə qızıl medala layiq görülmüş Səid Quliyev onunla yanaşı addımlayırdı. Onlar mərkəzə doğru hərəkət etdikcə ayaqları altında cadar-cadar olan torpaq görünürdü. Bu mənzərə Azərbaycan təbiətini göz önündə canlandırırdı.

Səid Quliyev stadionun mərkəzindəki qaya parçasını götürdü və onun yerində çökək yarandı. İlham Zəkiyevin yaxınlaşmağıyla məşəl söndü, çökək doldu. Torpaq üzərindəki çatlardan çıxan alov qığılcımlarının axını lavanı xatırladırdı.

Stadionun ortasından qaya parçası götürüldü və birinci məşəl gələcəkdə görüləcək işlərə işıq salmaq üçün torpağa sovurdu.

Torpağın çatlarından çıxan alov səhnənin kənarında dayanmış adama tərəf irəlilədi, onu ruh və ya hologram kimi bürüdü, cana gətirib oyatdı. Bu, dahi Azərbaycan şairi Nizamidir. Şairin əlində tutduğu tərəzinin bir gözündə qadın, digər gözündə kişi fiquru vardı. Nizami poeziyasının ruhundan doğan musiqi parçası tamaşaçıları şairin xəyal dünyasına apardı. Nəzərlər stadionun mərkəzində havadan asılan iri tərəziyə yönəldi. Nizaminin əlindəki tərəzi fırlandıqca nəhəng tərəzi də fırlanırdı. Havadakı tərəzinin gümüşü rəngli gözündə qadın (Ay), qızılı rəngli gözündə isə kişi (Günəş) rəqs edirdi. Nizaminin qəhrəmanları Leyli və Məcnunun rəmzləri olan kişi və qadın dövrə vura-vura rəqs edir, qovuşmağa çalışır, lakin birləşə bilmirdilər.







# Qırmızı şarların ecazı...





Səhnə ətrafındakı halqada üç yüzədək ifaçı göründü. Qədim tarixə malik miniatür sənətinin yaratdığı obrazlar səhnədə göründükcə halqanın ətrafı rəngarəngləşirdi. Halqa fırlandıqca adamlar sanki miniatür rəsmlərdə təsvir olunan obrazlar canlandılar. Nizami tamaşaçını yaradıcılığının doqquz mövzusu ətrafında səhnədən-səhnəyə aparırdı. Evlər, saraylar, məktəblər, şahzadələr, əjdahalar, atlar, digər real və əfsanəvi varlıqlar görünürdü.

Halqa tam dövrə vurduqdan sonra yerdən bir nar ağacı boy verib qalxdı. Nizami ağacdan bir nar dərdi. Qəfildən hər şey dondu.

Nizaminin ətrafındakı miniatürlər dünyası torpağa gömülərək yoxa çıxdı, tərəzi uzaqlaşdı və ifaçılar səhnəni tərk etdilər.

Stadionun mərkəzinə doğru "uçan" və öz dad-tam, oyanış, sevgi, uğur mücəssəməsi görkəmində Azərbaycanı rəmzləşdirən nəhəng bir nar göründü. Nar paralandı və onun "dənələri" - qırmızı rəngli yüzlərlə şar tribunalar üzərində uçuşaraq, ecazkar mənzərə yaratdı





